**Kimya, neftkimya və neft emalı istehsalatlarının mühəndis kommunikasiyalarının əsasları**

Fənn: İstehsalatda mühəndis kommunikasiyaları əsasları
Səviyyə: Baza, ümumi əsaslar
Müddət: 5 gün
Təlimatçı: MK şöbəsinin rəisi Hüseynağa Quliyev

Bu intensiv 5 günlük baza kursları İstehsalatda mühəndis kommunikasiyalarının əsaslarını özündə cəmləyir. Tədris olunan mövzular kimya, neftkimya və neft emalı istehsalatında avadanlıqlar, tutumlar, separatorlar, nasoslar, nəql xəttlərinə qoyulan tələblər və onların keyfiyyətləri haqqında kursu əhatə edir.

Kursun iştirakçıları avadanlıqlar, onların quraşdırılması və istismarına qoyulan tələbləri öyrənib, istehsalatda əyani şəkildə tətbiqiylə əyani tanış olacaqlar.

**Nəzərdə tutulur:**

Bu sahədə çalışan mühəndis və texniklər üçün nəzərdə tutulur.

**Öyrəniləcək material**

- Avadanlığın yerləşmə planı;
- Aparatların konstruktiv həlli;
- Tutum avadanlığı;
- Separatorlar;
- Rektifikasiya kolonları;
- Nasoslar.

**Kursun tərkibi:**

- Layihə eskizlərində avadanlıqların yerləşdirilməsi;
- Layihələrdə keyfiyyətə qoyulan əsas tələblər;
- Standartlara riayyət olunması;
- Qurğular haqqında ümumi məlumatlar;
- Qurğularda nəql xəttlərinin yerləşməsi;
- Qurğuların işinin tənzimlənməsi;
- Avadanlıqların yerləşməsinin əyani göstərilməsi;

**Tədrisi aparan təlimatçı haqqında:**

H. Quliyev 1981-ci ildə Mş Əzizbəyov adına Azərbaycan Neft və Kimya institutunun muhəndis-mexanika fakultəsini bitirmişdir. O, Sumqayıt Sintetik kauçuk zavodunda mexanik və sonralar istehsalatın baş mexaniki vəzifələrində işləmiş, 1988-ci ildən həmin zavodun layihə konstruktor şöbəsində aparıcı mühəndis-konstruktor vəzifəsində işləmişdir. 2010-cu ildən "Neftqazelmitədqiqatlayihə" institutunun muhəndis-komunikisiyaları şöbəsinə 14-cu dərəcə ilə mühəndis –mexanik vəzifəsinə işə götürülmüşdür. 2011-ci ildən 15-ci dərəcə ilə şöbədə LBM vəzifəsində çalışıb. 2013-cu ildə muhəndis-komunikisiyaları şöbəsinə rəis vəzifəsinə secılmiş hal-hazırda bu vəzifədə çalışır. O, işlədiyi muddətdə özünü nümunəvı isçi kimi aparmış, verilən tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirmişdir.

H.Quliyev aşağıda göstərilən layihələrin yerinə yetirilməsində yaxından iştirak etmişdir:

Qaradağ və Qalmaz yeraltı qaz anbarları sahəsində V=100m3 separatorun mexaniki hesabatl və layihəsi; (muq. № 10663)

Dubəndi neft terminalı ərazisində mexaniki təmir sexində dəmirci sobasının hesabatı və layihəsi; (muq. № 10643)

Azneft İB-nin neft çıxarma idarələrində demulsasiya sobalarında aparılan tədqiqarlarında mexanik kimi iştirakı;

H. Əliyev adına Bakı NEZ-nun 55 –li katalitik krekinq qurğusunda aşağı və yüksək təzyiqli məşəl sisteminin layihəsı. (muq. № 10837)

**Kursun keçirilmə yeri:**
"Neftqazelmitədqiqatlayihə" İnstitutu

Bütün kurslar institutun daxilində prezentasiya formasında keçirilə bilər. Həmçinin institut daxilində daha da dərindən kurslar təşkil oluna bilər.
Daha ətraflı məlumat almaq üçün kursun koordinatoru ilə əlaqə saxlaya bilərsiniz.

Əlaqə nömrələri: (99412) 521-19-57; Faks (99412) 521-15-15;
e-mail: office.ogpi@socar.az.
Ünvan:
"Neftqazelmitədqiqatlayihə" İnstitutu
AZ 1012, Bakı şəhəri, H. Zərdabi pr.88a